| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 30.12.2008 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 749-IIIQ |
| **ADI** | "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq Proqramı haqqında" Qərarın təsdiq edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2009, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 50) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 10.02.2009 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 450.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

**"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq Proqramı haqqında" Qərarın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq Proqramı haqqında" 2006-cı il noyabrın 28-də Minsk şəhərində imzalanmış Qərar Azərbaycan Respublikasının ona dair xüsusi rəyi ilə (xüsusi rəyin mətni əlavə olunur) təsdiq edilsin.

II. Bu qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 30 dekabr 2008-ci il
749-IIIQ

**Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq Proqramı haqqında**

**QƏRAR**

Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurası qərara aldı:

1. Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq Proqramı təsdiq edilsin (əlavə olunur).

Bu Proqramın birgə tədbirlərinin reallaşdırılması MDB-nin iştirakçısı olan maraqlı dövlətlər tərəfindən razılaşmaya əsasən, müvafiq dövlət orqanlarının fəaliyyətinin təmin edilməsi üçün milli büdcələrdə hər il nəzərdə tutulan maliyyə vəsaitləri çərçivəsində həyata keçirilir.

2. Bu Qərar imzalandığı tarixdən, onun qüvvəyə minməsi üçün qanunvericiliyində dövlətdaxili prosedurların yerinə yetirilməsi tələb olunan dövlətlər üçün isə depozitariyə müvafiq bildiriş təhvil verildiyi andan qüvvəyə minir.

3. Sənəd 2006-cı il 28 noyabr tarixində Minsk şəhərində bir əsl nüsxədən ibarət olmaqla rus dilində imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılmaqla onun təsdiq edilmiş surəti bu Qərarı imzalamış hər bir dövlətə göndəriləcəkdir.

**Azərbaycan Respublikası adından**
*(imza, xüsusi rəylə)*

**Ermənistan Respublikası adından**
*(imza)*

**Belarus Respublikası adından**
*(imza)*

**Gürcüstan adından**
—

**Qazaxstan Respublikası adından**
*(imza)*

**Qırğızıstan Respublikası adından**
*(imza)*

**Moldova Respublikası adından**
—

**Rusiya Federasiyası adından**
*(imza)*

**Tacikistan Respublikası adından**
*(imza)*

**Türkmənistan adından**
—

**Ukrayna adından**
*(imza, qeyd-şərtlə)*

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Dövlət başçıları Şurasının "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq Proqramı haqqında" 28 noyabr 2006-cı il tarixli qərarı ilə
**TƏSDİQ EDİLMİŞDİR**

**Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007- 2010-cu illər üçün**

**ƏMƏKDAŞLIQ PROQRAMI**

**PROQRAMIN PASPORTU**

| | |
|---|---|
| Adı | Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq proqramı (bundan sonra - Proqram) |
| Qərarı qəbul etmiş orqan | MDB-nin iştirakçısı olan dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurası |
| Əsas tərtibçilər | MDB-nin iştirakçısı olan dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının Katibliyi |

| | | | |
|---|---|---|---|
| Əsas icraçılar | MDB-nin iştirakçısı olan dövlətlər, onların səlahiyyətli orqanları, nizamnamə orqanları və sahəvi əməkdaşlıq orqanları, MDB-nin iştirakçısı olan dövlətlərin Parlamentlerarası Assambleyası, MDB-nin İcraiyyə Komitəsi | | |
| Məqsəd və vəzifələr | Proqramın məqsədi: MDB-nin iştirakçısı olan dövlətlərin, MDB-nin nizamnamə və sahəvi əməkdaşlıq orqanlarının insan alverinə qarşı mübarizə sahəsində əməkdaşlığının daha da təkmilləşdirilməsi<br>Proqramın əsas vəzifələri:<br>əməkdaşlığın beynəlxalq hüquqi bazasının genişləndirilməsi və möhkəmləndirilməsi;<br>milli qanunvericiliyin təkmilləşdirilməsi və harmonizasiyası;<br>razılaşdırılmış prosessual hərəkətlərin, profilaktik əməliyyat-axtarış tədbirlərinin və xüsusi əməliyyatların keçirilməsi;<br>əməkdaşlığın informasiya və elmi təminatı;<br>BMT-nin bu sahədə əsas sənədlərinin tələblərinin ardıcıl olaraq reallaşdırılması;<br>kadrların hazırlanması və mütəxəssislərin ixtisaslarının artırılmasında əməkdaşlıq | | |
| Həyata keçirilmə müddətləri və mərhələləri | 2007-2010-cu illər | | |
| Əsas tədbirlərin siyahısı, onların icraçıları və həyata keçirilməsi müddətləri | Təşkilati-hüquqi tədbirlər | MDB-nin iştirakçısı olan dövlətləri MDB-nin nizamnamə orqanları və sahəvi əməkdaşlıq orqanları, PAA | 2007-2010-cu illər |
| | Təşkilati-praktik tədbirlər | MDB-nin iştirakçısı olan dövlətləri MDB-nin nizamnamə orqanları və sahəvi əməkdaşlıq orqanları, PAA | 2007-2010-cu illər |
| | İnformasiya və elmi təminat | MDB-nin iştirakçısı olan dövlətləri MDB-nin nizamnamə orqanları və sahəvi əməkdaşlıq orqanları, PAA | 2007-2010-cu illər |
| | Kadr təminatı | MDB-nin iştirakçısı olan dövlətləri MDB-nin nizamnamə orqanları və sahəvi əməkdaşlıq orqanları, PAA | 2007-2010-cu illər |
| | Maliyyə təminatı | MDB-nin iştirakçısı olan dövlətləri MDB-nin nizamnamə orqanları və sahəvi əməkdaşlıq orqanları, PAA | 2007-2010-cu illər |
| | Nəzarət mexanizmi | MDB-nin iştirakçısı olan dövlətləri, MDB-nin nizamnamə orqanları və sahəvi əməkdaşlıq orqanları, PAA | 2007-2010-cu illər |
| Maliyyələşdirmənin həcmi və əsas mənbələri, maliyyə vəsaitlərinin xərclənmə istiqamətləri | Proqramın birgə tədbirlərinin maliyyələşdirilməsi MDB-nin iştirakçısı olan dövlətlər tərəfindən razılaşmaya əsasən, müvafiq dövlət orqanlarının fəaliyyətinin təmin edilməsi üçün milli büdcələrdə hər il nəzərdə tutulan maliyyə vəsaitləri çərçivəsində həyata keçirilir | | |
| Reallaşmanın gözlənilən son nəticələri | MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığının effektivliyinin, razılaşdırılmış prosessual hərəkətlərin, profilaktik tədbirlərin, əməliyyat-axtarış tədbirlərinin və xüsusi əməliyyatların səmərəliliyinin artırılması | | |
| İcraya nəzarətin təşkili sistemi | Bu Proqramın həyata keçirilməsi vəziyyəti barədə MDB İcraiyyə Komitəsinin məlumatlandırılması.<br>Proqramın yerinə yetirilməsi vəziyyətinə MDB-nin nizamnamə orqanları və sahəvi əməkdaşlıq orqanları tərəfindən hər il baxılması. Proqramın yerinə yetirilməsi vəziyyəti barədə MDB-nin İcraiyyə Komitəsi tərəfindən Birliyin Dövlət Başçıları Şurasına və Hökumət Başçıları Şurasına hər il məruzənin təqdim edilməsi | | |
| İstifadə edilmiş ixtisarlaкжn siyahısı | PAA - MDB-nin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası<br>BPƏŞ - MDB-nin iştirakçısı olan dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurası,<br>DİNŞ - MDB-nin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurası,<br>TORŞ - MDB-nin iştirakçısı olan dövlətlərin Təhlükəsizlik Orqanları və xüsusi xidmətləri Rəhbərlərinin Şurası, | | |

VİORƏŞ - MDB-nin iştirakçısı olan dövlətlərin Vergi (Maliyyə) İstintaqı Orqanlarının Rəhbərlərinin Əlaqələndirmə Şurası,
GXRŞ - MDB iştirakçı dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurası,
SQKŞ - Sərhəd Qoşunları Komandanları Şurası,
ƏNŞ - MDB-nin iştirakçısı olan dövlətlərin Ədliyyə Nazirləri Şurası,
MCMƏB - MDB iştirakçı dövlətlərinin ərazilərində Mütəşəkkil Cinayətkarlıqla və digər təhlükəli cinayətlərlə Mübarizənin Əlaqələndirilməsi Bürosu.

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq proqramı MDB-nin iştirakçısı olan dövlətlərin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının təşəbbüsü ilə hazırlanmışdır.

Proqramın qəbul edilməsi müasir dövrdə təhlükəsizliyə qarşı hədə və təhdidlərə əks-təsirin göstərilməsində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığının səmərəliliyinin artırılması zərurətindən irəli gəlir.

Proqramda nəzərdə tutulan kompleks tədbirlər MDB-nin iştirakçısı olan dövlətlərdə kriminogen vəziyyətin təhlilinə və onun inkişaf proqnozlarına, elmi tədqiqatların nəticelərinə, insan alverinə qarşı mübarizə təcrübəsinə, o cümlədən birgə fəaliyyət təcrübəsinə əsaslanır.

Proqramın məqsədi insan alvərinə qarşı mübarizə sahəsində MDB-nin iştirakçısı olan dövlətlərin, MDB-nin nizamnamə orqanlarının və sahəvi əməkdaşlıq orqanlarının əməkdaşlığının daha da təkmilləşdirilməsidir.

Proqramın əsas vəzifələri: MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığının beynəlxalq hüquqi bazasının genişləndirilməsi və möhkəmləndirilməsi, milli qanunvericiliyin təkmilləşdirilməsi və harmonizasiyası; razılaşdırılmış prosessual hərəkətlərin, profilaktik, əməliyyat-axtarış tədbirlərinin və xüsusi əməliyyatların həyata keçirilməsi; əməkdaşlığın informasiya və elmi təminatı; kadrların hazırlanması və mütəxəssislərin ixtisaslarının artırılmasında əməkdaşlığın həyata keçirilməsi.

Proqramın reallaşması beynəlxalq hüquqda ümumi qəbul edilmiş prinsiplərə və MDB-nin iştirakçısı olan dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

| | **Tədbirin adı** | **İcra müddəti** | **İcraçılar** | **Qərarı qəbul edən MDB orqanı** |
|---|---|---|---|---|
| | **1. Təşkilati-hüquqi tədbirlər** | | | |
| 1.1. | İnsan alverinə qarşı mübarizə sahəsində əməkdaşlığın beynəlxalq-hüquqi bazasının genişləndirilməsi məqsədilə, bu sahədə bağlanılmış əsas beynəlxalq müqavilələrə qoşulma məsələsinə baxmaq (əlavəyə bax). | 2007-2010-cu illər | Əlavədə qeyd olunan beynəlxalq müqavilələrə qoşulmamış MDB-nin iştirakçısı olan dövlətlər | |
| 1.2. | Aşağıdakı sənədlərin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların həyata keçirilməsinin sürətləndirilməsi tövsiyə edilsin: | 2007-ci il | Qeyd olunan beynəlxalq müqavilələri imzalamış, lakin onların qüvvəyə minməsi üçün dövlətdaxili prosedurları həyata keçirməmiş MDB-nin iştirakçısı olan dövlətlər | |
| | a) yetkinlik yaşına çatmayanların daimi yaşadıqları dövlətlərə qaytarılması məsələlərində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığı haqqında 2002-ci il 7 oktyabr tarixli Saziş; | | | |
| | b) İnsanın, onun orqan və toxumalarının alverinə qarşı mübarizə sahəsində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığı haqqında 2005-ci il 25 noyabr tarixli Saziş | | | |
| 1.3. | İnsanın, onun orqan və toxumaları alverinə qarşı mübarizə sahəsində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığı haqqında 2005-ci il 25 noyabr tarixli Sazişin səmərəli reallaşdırılması məqsədilə idarələrarası xarakter daşıyan sazişlərin bağlanılması | 2007-2009-cu illər | DİNŞ, BPƏŞ, TORŞ | |

| | | | | |
|---|---|---|---|---|
| 1.4. | MDB-nin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasına aşağıdakı sənədlərin hazırlanması tək-lif olunsun: | 2008-ci il | PAA | |
| | a) insan alverinə qarşı mübarizə sahəsində model qanunvericilik aktının layihəsi; | | | |
| | b) insan alverinin qurbanlarına yardım göstərilməsi haqqında model qanunvericilik aktının layihəsi; | | | |
| | c) insan alverinə qarşı mübarizə sahəsində MDB-nin iştirakçısı olan dövlətlərin qanunvericiliyinin unifikasiyasına və harmonizasiyasına dair tövsiyələr | | | |
| 1.5. | Aşağıdakı qanunvericilik və digər normativ hüquqi aktların qəbul edilməsi tövsiyə edilsin: | 2007-2009-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| | a) insan alveri qurbanlarının hüquq və mənafelərinin müdafiəsinə, onların fiziki, psixoloji və sosial reabilitasiyasına yönəldilmiş; | | | |
| | b) beynəlxalq nikah vasitəçiliyi fəaliyyətinin və moda biznesinin, vətəndaşların xaricdə işlə təmin olunması və turizm agentliklərinin lisenziyalaşdırılmasını nəzərdə tutan; | | | |
| | c) turizm, vətəndaşların xaricdə işlə təmin olunması və uşaqların xarici vətəndaşlar tərəfindən övladlığa götürülməsi sahəsində strukturların vasitəçilik fəaliyyəti üzərində nəzarətin gücləndirilməsini nəzərdə tutan | | | |
| 1.6. | İnsan alveri qurbanlarının statusunu müəyyən edən konseptual müddəaların hazırlanması | 2007-2008-ci illər | BPƏŞ | |
| 1.7. | İnsan alveri ilə əlaqədar cinayətlər üzrə istintaq və məhkəmə təcrübəsini, prokuror nəzarəti təcrübəsinin öyrənilməsini və ümumiləşdirilməsini həyata keçirmək, zərurət yarandıqda MDB-nin iştirakçısı olan dövlətlərin qanunvericiliyinin və hüquq mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair müvafiq təklifləri irəli sürmək | 2007-2008-ci illər | BPƏŞ | |
| 1.8. | Potensial qurbanların qanuni fəaliyyət adı altında insan alverinə cəlb edilməsinə yönəlmiş reklamın yayımlanmasına nəzarəti təmin edən təşkilati-hüquqi tədbirlər görmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| | **II. Təşkilati-praktik tədbirlər** | | | |
| 2.1. | Aşağıda qeyd olunmuş milli proqramları qəbul etmək: | 2007-2008-ci illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| | a) insan alverinə əks-təsir üzrə; | | | |
| | b) insan alverinin qurbanlarına psixoloji, hüquqi, tibbi, informasiya və digər yardımın göstərilməsi üzrə | | | |

| | | | | |
|---|---|---|---|---|
| 2.2. | BMT-nin 15 noyabr 2000-ci il tarixli Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan insan alveri, xüsusilə də qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Protokolunun icrasına milli səviyyədə məsul olan mərkəzi orqanı müəyyən etmək | 2007-2008-ci illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| 2.3. | İmkan daxilində, insan alveri qurbanlarına yardım göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələrini cəlb etməklə, insan alverinə əks-təsir məsələləri üzrə milli səviyyədə idarələrarası əlaqələndirici mexanizmi yaratmaq | 2007-2008-ci illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| 2.4. | İnsan alverinə qarşı mübarizə üzrə razılaşdırılmış prosessual hərəkətlərin, profilaktik, əməliyyat-axtarış tədbirlərinin və xüsusi əməliyyatların həyata keçirilməsini təşkil etmək, ilk növbədə: | 2007-2008-ci illər | DİNŞ,<br>TORŞ,<br>BPƏŞ,<br>MCMƏB<br>(səlahiyyətləri üzrə) | |
| | a) xaricdə işlə təmin edilmə və turizm sahəsində agentliklərin qanunsuz fəaliyyətinin qarşısının alınması üzrə; | | | |
| | b) insan alveri qurbanlarının gətirilməsi və çıxarılması kanallarının aşkar və ləğv edilməsi üzrə; | | | |
| | c) saxta sənədlərin hazırlanması və satışı üzrə fəaliyyətin aşkar edilməsi və qarşısının alınması üzrə; | | | |
| | ç) əxlaqsızlıq yuvalarının və "görüş evləri"nin aşkar edilməsi və onların fəaliyyətinin qarşısının alınması üzrə; | | | |
| | d) "internet" şəbəkəsində pornoqrafik saytların yaradıcılarının, administratorlarının və hosterlərinin aşkar edilməsi üzre; | | | |
| | e) insan alveri ilə bağlı cinayətlərin açılması və istintaqı üzrə | | | |
| 2.5. | İnsan alverinə qarşı ixtisaslaşdırılmış strukturlar (böl-mələr) yaratmaq | 2007-2008-ci il | MDB-nin iştirakçısı olan dövlətlər | |
| 2.6. | Qanunvericiliyin tətbiqini, insan alverinə qarşı mübarizə sahəsində hüquq mühafizə və digər orqanların təcrübəsini mütəmadi olaraq təhlil etmək və əldə edilmiş nəticələr əsasında bu sahədə fəaliyyətin təkmilləşdirilməsi üzrə təkliflər təqdim etmək | 2007-2010-cu illər | BPƏŞ | |
| 2.7. | Fəaliyyəti insan alveri qurbanlarının reabilitasiyasına yönəldilmiş beynəlxalq və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı inkişaf etdirmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |

| | | | | |
|---|---|---|---|---|
| 2.8. | İnsan alverinə qarşı mübarizə üzrə əməliyyat və digər informasiya mübadiləsini daimi əsasda həyata keçirmək | 2007-2010-cu illər | DİNŞ, BPƏŞ, TORŞ, MCMƏB | |
| 2.9. | İnsan alveri qurbanlarının gətirilməsinin və çıxarılmasının qarşısının alınması və aşkar edilməsi üçün birgə əlavə kompleks sərhəd nəzarəti tədbirləri hazırlamaq və həyata keçirmək | 2007-2010-cu illər | SQKŞ | |
| 2.10. | Zərurət olduqda, cinayət işlərinin istintaq və məhkəmə baxışı zamanı insan alveri qurbanları üçün müvəqqəti qalma mərkəzləri yaratmaq | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| 2.11. | İnsan alveri qurbanlarının reinteqrasiyası üçün sosial müdafiə üzrə tədbirlər sistemini o cümlədən ictimai və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqəli şəkildə inkişaf etdirmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| 2.12. | İnsan alverinin qurbanı olmuş vətəndaşların vətənlərinə qaytarılması məsələlərində əməkdaşlığı genişləndirmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| 2.13. | Xaricə işə göndərilən vətəndaşların həyatının və sağlamlığının məcburi sığortalanmasının onların işə düzəldilməsini təmin edən, həmçinin turizm xidmətləri göstərən hüquqi şəxslər hesabına təşkil olunmasını tövsiyə etmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| 2.14. | Ölkəyə gəlmə (ölkədən getmə) zamanı istifadə olunan sənədlərin müdafiəsi üçün yeni, o cümlədən biotermik texnologiyaların tətbiqini tövsiyə etmək. Bu sahədə əməkdaşlığı inkişaf etdirmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| | **III. İnformasiya və elmi təminat** | | | |
| 3.1. | İnsan alveri ilə bağlı cinayətlərin qarşısının alınmasına, aşkar edilməsinə, aradan qaldırılmasına, açılmasına və istintaqına dair metodik vəsaitlər hazırlamaq | 2007-2008-ci illər | BPƏŞ, DİNŞ | |
| 3.2. | İnsan alverinə qarşı mübarizə sahəsində qanunvericilik aktlarının və sair normativ hüquqi aktların, metodik vəsaitlərin və digər informasiyanın mübadiləsini həyata keçirmək | 2007-2010-cu illər | DİNŞ, BPƏŞ, TORŞƏNŞ, MCMƏB | |
| 3.3. | İnsan alveri problemləri ilə məşğul olan müəssisə və təşkilatların iş təcrübəsinin öyrənilməsi üçün. nümayəndə heyətlərinin mübadiləsini həyata keçirmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |

| | | | | |
|---|---|---|---|---|
| 3.4. | İnsan alveri ilə məşğul olan transmilli cinayətkar dəstələr, onların başçıları və bu cinayətkar fəaliyyətin təşkilinə və maliyyələşdirilməsinə aidiyyəti olan kommersiya, ictimai və digər təşkilat və strukturlar barədə ixtisaslaşdırılmış məlumat bankı yaratmaq | 2007-2008-ci illər | DİNŞ | |
| 3.5. | İnsan alverinə əks-təsir üzrə təşviqat-təbliğat işini təşkil etmək, cəmiyyətin, ilk növbədə yetkinlik yaşına çatmayanların insan alveri qurbanlarının düşdüyü təhlükəli situasiyalar haqqında məlumatlılığının artırılmasını təmin etmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| 3.6. | Vətəndaşları xarici əmək miqrasiyası sahəsində etibarlı informasiya ilə təmin etmək, vətəndaşların xaricdə işlə təmin edilməsi fəaliyyəti göstərmək hüququ olan təşkilatlar barədə məlumatları mütəmadi olaraq əhalinin nəzərinə çatdırmaq. Vətəndaşları insan alveri ilə məşğul olan şəxslərin istifadə etdiyi vasitə və metodlar barədə, qanunazidd hərəkətlərdən vətəndaşların müdafiə edilməsi sahəsində dövlətlər tərəfindən görülən tədbirlər, insan alverinə görə məsuliyyət barədə məlumatlandırmaq | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| 3.7. | İnsan alverinə əks-təsir göstərilməsi sahəsində MDB-nin iştirakçısı olan dövlətlərin əməkdaşlığının təkmilləşdirilməsinə dair elmi-praktik konfransın keçirilməsini təşkil etmək | 2009-cu il | MDB-nin İK, BPƏŞ, DİNŞ, TORŞ, SQKŞ, GXRŞ, VİORƏŞ, ƏNŞ | |
| 3.8. | İnsan alveri ilə mübarizədə əməkdaşlığın aktual problemləri üzrə elmi-praktik seminarlar keçirmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər, BPƏŞ, DİNŞ, TORŞ, SQKŞ, ƏNŞ | |
| | **IV. Kadr təminatı** | | | |
| 4.1. | Müqavilə əsasında aşağıdakıları davam etdirmək: | 2007-2010-cu illər | DİNŞ, BPƏŞ, TORŞ | |
| | a) kadrların hazırlanmasında, hüquq mühafizə orqanlarının əməkdaşlarının ixtisasının artırılmasında əməkdaşlığı, o cümlədən məsləhətləşmələrin, insan alveri ilə mübarizə üzrə ixtisaslaşdırılmış bölmələrdə staj keçmələrin keçirilməsi yolu ilə | | | |
| | b) kadrların hazırlanması və hüquq mühafizə orqanları əməkdaşlarının ixtisasının artırılması üzrə tədris-metodoloji materialların mübadiləsini | | | |

| | | | | |
|---|---|---|---|---|
| 4.2. | Pedaqoji, tibbi və digər tədris müəssisələrinin bazasında insan alverinin qurbanları ilə iş üzrə mütəxəssislərin, sosial işçilərin, psixoloqların, "qaynar xətt" mərkəzinin operatorlarının və əhalinin məşğulluq xidmətinin əməkdaşlarının hazırlıq və ixtisasartırma kurslarının yaradılması imkanını o cümlədən qeyri-hökumət təşkilatları ilə əlaqəli şəkildə nəzərdən keçirmək | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| | **V. Maliyyə təminatı** | | | |
| | Proqramın birgə tədbirlərinin maliyyələşdirilməsi MDB-nin iştirakçısı olan maraqlı dövlətlər tərəfindən razılaşmaya əsasən müvafiq dövlət orqanlarının fəaliyyətinin təmin edilməsi üçün milli büdcələrdə hər il nəzərdə tutulan maliyyə vəsaitləri çərçivəsində həyata keçirilir | 2007-2010-cu illər | MDB-nin iştirakçısı olan dövlətlər | |
| | **VI. Nəzarət mexanizmi** | | | |
| 6.1. | Bu Proqramın müddəalarının həyata keçirilməsinə dair planlar qəbul etmək və onun həyata keçirilməsinə nəzarətin formalarını müəyyən etmək | Proqramın qebul olunduğu vaxtdan 3 ay ərzində | MDB-nin iştirakçısı olan dövlətlər, DİNŞ, BPƏŞ, TORŞ, ƏNŞ | |
| 6.2. | Bu Proqramın yerinə yetirilməsi vəziyyətinə baxmaq | Hər il | MDB-nin iştirakçısı olan dövlətlər, MDB-nin PAA, DİNŞ, BPƏŞ, TORŞ, ƏNŞ | |
| 6.3 | Proqramın icrası vəziyyəti barədə hər il MDB-nin İcraiyyə Komitəsinə məlumat vermək | Hesabat ilindən sonrakı ilin fevral ayında | | |
| 6.3 | Proqramın icrası vəziyyəti barədə MDB-nin iştirakçısı olan dövlətlərin Dövlət Başçıları Şurasına və Hökumət Başçıları Şurasına hesabat təqdim etmək | Hər il | MDB-nin iştirakçısı olan dövlətlər, MDB-nin PAA, DİNŞ, BPƏŞ.TORŞ, ƏNŞ MDB-nin İcraiyyə Komitəsi | DBŞ, HBŞ |

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan
dövlətlərin insan alveri ilə mübarizə sahəsində
əməkdaşlıq Proqramının 1.1-ci bəndinə
ƏLAVƏ

**İnsan alverinə qarşı mübarizə sahəsində əsas beynəlxalq**
**M Ü Q A V İ L Ə L Ə R**

İnsan alveri və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında 1949-cu il 2 dekabr tarixli Konvensiya

1926-cı il sentyabrın 25-də Cenevrədə imzalanmış Köləlik haqqında Konvensiya, 1953-cü il 7 dekabr tarixli Protokolla edilmiş dəyişikliklərlə

Köləliyin, kölə alverinin və köləliyə oxşar təsisatların və adətlərin ləğv olunması haqqında 1956-cı il 7 sentyabr tarixli Əlavə Konvensiya

Uşaqların müdafiəsi və xarici övladlığa götürmə üzrə əməkdaşlıq haqqında 1993-cü il 29 may tarixli Haaqa Konvensiyası

BMT-nin Uşaq Hüquqları haqqında 1989-cu il 20 noyabr tarixli Konvensiyası

BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair 2000-ci il 25 may tarixli Fakültativ Protokolu

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı 2000-ci il 15 noyabr tarixli Konvensiyası

BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan, İnsan, xüsusilə de qadın və uşaq alverinin qarşısının alınması və aradan qaldırılması və ona görə cəzalandırma haqqında 2000-ci il 15 noyabr tarixli Protokolu

İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında 1950-ci il 4 noyabr tarixli Avropa Konvensiyası

**Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq Proqramı haqqında Qərara dair**
**AZƏRBAYCAN RESPUBLİKASININ XÜSUSİ RƏYİ**

28 noyabr 2006-cı il — Minsk şəhəri

Proqram həyata keçirilərkən:
Azərbaycan Respublikası MDB-nin iştirakçısı olan dövlətlərin milli qanunvericiliklərinin harmonizasiyasına dair müddəalarla özünü bağlı hesab etmir;
Azərbaycan Respublikasının hər bir tədbirdə iştirakı ayrıca olaraq müəyyən ediləcəkdir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İ.ƏLİYEV**